*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün DÖVLƏT PROQRAMI

## 1. Giriş

Azərbaycan Respublikasında sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədilə narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir. Aparılan islahatlar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlıq problemlərinin həlli üçün cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, beynəlxalq əlaqələrin genişləndirilməsini və kompleks mübarizəni zəruri etmişdir.

Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Həmin problemin vurduğu ziyanın həcmi praktiki olaraq çox böyükdür və həm narkotik istifadəçisinin şəxsiyyətinin deqradasiyasına, həm də müxtəlif cinayətlər törədilməsinə, cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə və bir çox mənfi hallara gətirib çıxarır. Eyni zamanda, cinayətkarlığın artmasına səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir. Bu baxımdan, dünya dövlətləri narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını daha da təkmilləşdirir, habelə beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiqi sahəsində səylərini artırırlar.

"Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli 485 nömrəli Fərmanı ilə əsas vəzifəsi narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdən, bu sahədə dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarət olan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində dövlətin strateji kursunun əsasları müəyyən edilmişdir. Respublikada narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində bir sıra təşkilati-hüquqi, institusional və əməli praktiki tədbirlər həyata keçirilmiş, narkotiklərlə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirak daha intensiv xarakter almışdır.

Azərbaycan Respublikası beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək, Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulmuşdur. Ölkəmizdə beynəlxalq standartlara uyğun normativ milli hüquqi baza yaradılmış, təkmilləşdirilmiş və onun beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində xeyli iş görülmüşdür.

Bununla yanaşı, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində geniş tədbirləri özündə ehtiva edən proqramlar – Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 371 nömrəli Fərmanı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram", 2007-ci il 28 iyun tarixli 2271 nömrəli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007–2012-ci illər üçün)", 2013-cü il 24 iyun tarixli 2966 nömrəli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013–2018-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmiş və uğurla həyata keçirilmişdir.

## 2. Dövlət Proqramının məqsədi

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın (bundan sonra–Dövlət Proqramı) məqsədi respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsi və digər genişmiqyaslı məsələlərdən ibarətdir.

## 3. Dövlət Proqramının maliyyələşdirilməsi

Bu Dövlət Proqramının icrası üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı orqanlar üçün nəzərdə tutulmuş vəsait dairəsində maliyyələşdirilir.

## 4. Dövlət Proqramının həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcraçı orqanlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **4.1. Təşkilati tədbirlər** | | | |
| **4.1.1.** | "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013–2018-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrasının yekunlarının təhlili və müvafiq tədbirlərin həyata keçirilməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası | 2019 sentyabr |
| **4.1.2.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və onlardan sui-istifadə ilə əlaqədar mübarizə tədbirlərini daha da gücləndirmək məqsədilə aidiyyəti qurumların əməkdaşlığının möhkəmləndirilməsi və qarşılıqlı fəaliyyətinin təmin edilməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti | 2019–2024 |
| **4.1.3.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizədə müvafiq səlahiyyətli dövlət orqanlarının ehtiyaclarının öyrənilməsi və müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması üçün təkliflər verilməsi | Nazirlər Kabineti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | 2019–2024 |
| **4.1.4.** | Narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması, narkoloq və tibbi psixoloqların, narkoloji müalicə müəssisələrinin sayının artırılması, reabilitasiya mərkəzlərinin yaradılması | Səhiyyə Nazirliyi | 2019–2024 |
| **4.1.5.** | Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi tibb müəssisəsinin fəaliyyətinin təmin edilməsi | Daxili İşlər Nazirliyi | 2019–2020 |
| **4.1.6.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ilkin tədqiqatını və məhkəmə ekspertizasını aparan laboratoriyaların maddi-texniki təminatının yaxşılaşdırılması üzrə tədbirlərin görülməsi | Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2019-2023 |
| **4.1.7.** | Məhkəmə ekspertizası tədqiqatına müxtəlif konsentrasiyalarda çəkməli qarışıqların (siqaret) üzərinə hopdurulmuş şəkildə təqdim olunan psixoaktiv maddələrin kəmiyyət analizlərinin aparılması üçün onların etalon nümunələrinin əldə edilməsi üzrə zəruri tədbirlər görülməsi | Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | mütəmadi |
| **4.1.8.** | Yeni psixoaktiv maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə məqsədilə onların ekspres analizlərinin aparılması üçün müasir avadanlığın əldə olunması və bu avadanlıqdan istifadəyə dair müvafiq təlimlərin təşkili | Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti | 2019–2023 |
| **4.1.9.** | Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair şəxsi həyat sirri olmayan məlumatların məcmusunu yaratmaq məqsədilə Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadəyə dair Milli İnformasiya Mərkəzinin yaradılması | Nazirlər Kabineti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | 2019 |
| **4.1.10.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə vətəndaşların aktiv fəaliyyət göstərməsi üçün təşkilati-hüquqi formasından asılı olmayaraq aidiyyəti nazirlik, komitə və təşkilatlarla, operativ qaydada əlaqələndirməni təmin etmək üçün "Qaynar xətt" rabitə əlaqəsinin yaradılması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | 2019 |
| **4.1.11.** | Narkotikdən sui-istifadə edənlərin aşkarlanması metodlarının təkmilləşdirilməsi ilə bağlı tədqiqatlar aparılması | Səhiyyə Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2019–2023 |
| **4.1.12.** | Narkotiklərlə bağlı cinayət işlərinin istintaqı və məhkəmə baxışı zamanı narkotiklərin əldə edilməsi mənbələrinin aşkara çıxarılması məqsədilə tədbirlərin gücləndirilməsi | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti | mütəmadi |
| **4.1.13.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətkarlığın son 5 ildə vəziyyətinin, dinamikasının, latentliyinin hərtərəfli təhlil edilməsi və müvafiq tədbirlər görülməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2019 |
| **4.1.14.** | Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəqli və istehsalı ilə bağlı vəziyyəti təhlil etməklə, müvafiq təkliflər verilməsi | Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | hər ilin sonunda |
| **4.1.15.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə bağlı vəziyyət barədə sorğuların keçirilməsi, həmçinin müxtəlif yaş qrupları arasında narkomanlığın yayılma dərəcəsini aşkarlamaq məqsədilə sosial araşdırmalar aparılması, nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflər hazırlanması | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2019-2024 |
| **4.1.16.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanuni dövriyyəsinə ciddi nəzarətin təmin edilməsi məqsədilə müvafiq monitorinqlərin aparılması | Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | mütəmadi |
| **4.1.17.** | Hüquq-mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən çıxarılmış güclü təsirə malik narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının mənbəyinin və nümunələrarası əlaqələrinin müəyyən edilməsi məqsədilə onların eyniləşdirilməsinin həyata keçirilməsi, xarakterik xüsusiyyətlərinin və kimyəvi xassələrinin (təmizlik dərəcəsinin) qeydiyyatının aparılması | Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2019–2024 |
| **4.1.18.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədilə aidiyyəti qeyri-hökumət təşkilatlarının, o cümlədən digər vətəndaş cəmiyyəti institutlarının sosial xarakterli tədbirlərin icrasına cəlb olunması | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2019–2024 |
| **4.1.19.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində beynəlxalq təcrübədən istifadə etməklə, əməkdaşların peşəkarlığının yüksəldilməsi və təcrübə mübadiləsi məqsədi ilə ixtisaslaşdırılmış seminarların, təlimlərin keçirilməsi | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.1.20.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizəyə həsr olunmuş xarici nəşrlərin aidiyyəti təşkilatların mütəxəssislərinə paylanılması məqsədilə əldə edilərək, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupuna göndərilməsi | Xarici İşlər Nazirliyi və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | mütəmadi |
| **4.1.21.** | Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanmasında istifadə oluna bilən prekursorları idxal, istehsal və istifadə edən müəssisə və elmi tədqiqat laboratoriyalarının müvafiq monitorinqi | Səhiyyə Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | mütəmadi |
| **4.1.22.** | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının internet saytının təkmilləşdirilməsi, mobil versiyasının hazırlanması, sosial şəbəkələrdə yeni səhifələrin açılması və onların aktiv fəaliyyətinin təmin edilməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | 2020 |
| **4.1.23.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair illik milli hesabatın hazırlanması | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | hər il yanvarın 30-dək |
| **4.1.24** | Proqramda nəzərdə tutulmuş tədbirlərin icrası barədə aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən verilən hesabatların ümumiləşdirilərək müzakirə edilməsi üçün Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasına təqdim edilməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | hər ilin yanvar ayı |
| **4.2. Qanunvericiliyin təkmilləşdirilməsi** | | | |
| **4.2.1.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi | Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2019–2023 |
| **4.2.2.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində əməliyyat-axtarış tədbirlərinin səmərəliliyinin artırılmasına dair təkliflər hazırlanması | Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2019–2022 |
| **4.2.3.** | Cinayət işləri üzrə narkotiklərin mənbəyinin müəyyən olunmasına nəzarətin gücləndirilməsi məqsədilə məhkəmə və hüquq-mühafizə orqanları tərəfindən belə halların hər il üzrə statistikasının aparılması barədə müddəaların qanunvericiliyə əlavə edilməsi | Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2019 |
| **4.2.4.** | Normativ hüquqi aktlarda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfindən şəxsin üzərində hər hansı qanunsuz saxlanılan əşyanın aşkar edilib götürülməsinin prosedur qaydalarını dəqiq müəyyənləşdirəcək dəyişikliyin edilməsi | Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2019 |
| **4.2.5.** | Narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə çağırışçıların və həqiqi hərbi xidmət keçən hərbi qulluqçuların icbari narkoloji müayinədən keçməsi məsələsinə qanunvericiliyə uyğun olaraq baxılması | Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 2019–2020 |
| **4.2.6.** | Psixoaktiv maddələrin yeni növlərinin yayılması, onların struktur və formalarının müxtəlifliyi nəzərə alınaraq, dövriyyəsi qadağan edilmiş psixotrop maddələrə dair müvafiq siyahıların təkmilləşdirilməsi ilə bağlı təkliflər verilməsi | Nazirlər Kabineti, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2019–2022 |
| **4.2.7.** | Narkoistifadəçilər barədə daha dolğun, aydın və konkret məlumatların əldə olunaraq yığılması üçün müasir tələblərə cavab verən yeni qeydiyyat sisteminin işlənilib hazırlanması | Səhiyyə Nazirliyi | 2019–2020 |
| **4.3. Beynəlxalq tədbirlər** | | | |
| **4.3.1.** | Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində narkotik tərkibli bitkilərin əkilməsi, onların istehsalı, tranziti, terrorçuluğun maliyyələşdirilməsi, çirkli pulların yuyulması və onunla əlaqəli digər cinayət növlərinin yayılması hallarına beynəlxalq ictimaiyyətin diqqətinin cəlb edilməsi və digər zəruri tədbirlərin görülməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.3.2.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığın davam etdirilməsi | Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | 2019–2024 |
| **4.3.3.** | Narkomanlığın yayılmasının qarşısının alınması istiqamətində uğurlu strategiyası olan dövlətlərin təcrübəsi ilə tanış olmaq məqsədilə həmin dövlətlərlə əməkdaşlığın genişləndirilməsi | Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | 2019–2024 |
| **4.3.4.** | Narkotik vasitələrin qeyri-tibbi qəbulunun profilaktikası işinin səmərəli təşkili məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi, maarifləndirici təlim materiallarının hazırlanması | Səhiyyə Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.3.5.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsindən əldə edilən pul vəsaitinin və ya digər əmlakın leqallaşdırılmasının aşkarlanması və qarşısının alınması məqsədilə aidiyyəti dövlət orqanları ilə maliyyə qurumlarının qarşılıqlı əlaqələrinin möhkəmləndirilməsi, habelə xarici dövlətlərin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi | Maliyyə Monitorinqi Xidməti, Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2019–2024 |
| **4.3.6.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfranslarda, seminarlarda və digər tədbirlərdə aidiyyəti dövlət qurumlarının mütəxəssislərinin iştirakının təmin edilməsi | Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Dövlət Gömrük Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Milli Elmlər Akademiyası, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, digər aidiyyəti dövlət orqanları (qurumları) | mütəmadi |

*(ardı 5-ci səhifədə)*

# Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün DÖVLƏT PROQRAMI

*(əvvəli 4-cü səhifədə)*

| | | | |
|---|---|---|---|
| **4.4. Profilaktika, müalicə, reabilitasiya və maarifləndirmə tədbirləri** | | | |
| **4.4.1.** | Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin vaxtında aşkarlanması, könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində tibb müəssisələrinin, ərazi polis qurumlarının qarşılıqlı əlaqələrinin genişləndirilməsi və təkmilləşdirilməsi | Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.4.2.** | Narkotik vasitələrin qeyri-tibbi qəbulunun profilaktikası, belə şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, həmçinin bu tədbirləri həyata keçirəcək mütəxəssislərin peşəkarlığının artırılması | Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2019-2021 |
| **4.4.3.** | Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan olunmuş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrdən və psixotrop maddələrdən ibarət olan dərman vasitələri barədə gömrük və sərhəd keçid məntəqələrində elektron, həmçinin yazılı məlumatların yerləşdirilməsi və mütəmadi yenilənməsi | Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Səhiyyə Nazirliyi | 2019–2024 |
| **4.4.4.** | Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək məqsədilə metodiki tövsiyələrin hazırlanması, onlardan istifadənin təşviqi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.4.5.** | Narkomanlar, həmçinin QİÇS və digər viruslara yoluxanlar arasında tibbi-gigiyena, təbliğat və maarifləndirmə işinin gücləndirilməsi | Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.4.6.** | Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər arasında aparılan profilaktik tədbirlərin keyfiyyətinin və həmin tədbirləri icra edənlərin peşəkarlığının artırılması üzrə ixtisaslaşmış təlimlərin keçirilməsi | Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | mütəmadi |
| **4.4.7.** | Narkomanlığın zərəri barədə zəruri metodiki-tədris vəsaitlərinin hazırlanması və internet resurslarında yerləşdirilməsi | Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | mütəmadi |
| **4.4.8.** | Narkomanlıq xəstəliyindən azad olan insanların cəmiyyətə inteqrasiyası və məşğulluğunun təmin edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.4.9.** | Cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər arasında antinarkotik təbliğat işinin gücləndirilməsi, penitensiar müəssisələrin əməkdaşları üçün təlimlərin keçirilməsi | Ədliyyə Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, aidiyyəti dövlət və qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.4.10.** | Yerli icra hakimiyyəti orqanları tərəfindən narkomanlığın qarşısının alınması ilə bağlı təbliğat və maarifləndirmə işlərinin təşkili, gücləndirilməsi və davamlılığının təmin edilməsi | şəhər və rayon icra hakimiyyətləri | mütəmadi |
| **4.4.11.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi, həmçinin sui-istifadəsi ilə əlaqədar mübarizəni gücləndirilmək məqsədilə regionlarda müzakirələr aparılması, vətəndaş cəmiyyəti institutlarının iştirakının genişləndirilməsi, belə tədbirlərə din xadimlərinin cəlb edilməsi, həmin mövzuda müzakirələrin sayının artırılması | şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə komissiyalar, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | mütəmadi |
| **4.4.12.** | Yetkinlik yaşına çatmayanların və gənclərin təlim-tərbiyəsinə, məşğulluğuna, asudə vaxtlarının səmərəli təşkilinə diqqətin artırılması, idman, incəsənət və ictimai faydalı əməklə məşğul olmaları üçün şəraitin yaradılması, narkotiklərə meyilli şəxslər barəsində vaxtında qabaqlayıcı, profilaktik tədbirlərin görülməsi | yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, bələdiyyələri cəlb etməklə | mütəmadi |
| **4.4.13.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə görə məsuliyyətə cəlb olunmuş şəxslərin, o cümlədən yetkinlik yaşına çatmayanların işləri üzrə təhqiqat, ibtidai və məhkəmə istintaqı dövrünü əhatə edən araşdırmalar zamanı belə cinayətlərin törədilməsini doğuran səbəb və şəraitin öyrənilməsi, eləcə də qarşısının alınması üçün tədbirlər görülməsi | Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Ədliyyə Nazirliyi | mütəmadi |
| **4.4.14.** | Narkotik tərkibli bitkilərin qanunsuz əkinlərinin və yabanı halda bitmiş sahələrinin aşkar olunması və həmin bitkilərin məhv edilməsi, habelə bu məqsədlə hər il xüsusi əməliyyat-axtarış tədbirlərinin keçirilməsi | Daxili İşlər Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Sərhəd Xidməti, Azərbaycan Milli Elmlər Akademiyası, şəhər və rayon icra hakimiyyətləri, bələdiyyələri cəlb etməklə | mütəmadi |
| **4.4.15.** | Yabanı bitən çətənənin təbii biosenozdan sıxışdırılıb çıxarılması imkanlarının tədqiq edilməsi və bunun üçün müvafiq elmi tədqiqat işlərinin aparılması, meşə ərazilərində, sıx yaşıllıq massivlərində və çətin relyefli ərazilərdə narkotik tərkibli bitkilərin müəyyənləşdirilməsi üçün müasir texnologiyalardan istifadə | Azərbaycan Milli Elmlər Akademiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2019–2024 |
| **4.4.16.** | Azərbaycan Respublikasının ərazisində narkotik tərkibli yabanı bitkilərin inkişafını, yetişməsini və vegetasiyasını əks etdirən geobotaniki xəritələrin hazırlanması üçün müvafiq tədqiqat işlərinin və təyinat monitorinqinin təşkili, həmin bitkilərin morfoloji görkəmini əks etdirən tablo və fotoalbomlar vasitəsilə onların zərərli xassələrinin təbliği | Azərbaycan Milli Elmlər Akademiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə şəhər və rayon komissiyaları, bələdiyyələri cəlb etməklə | mütəmadi |
| **4.4.17.** | Ali, orta ixtisas və peşə təhsili müəssisələrinin, ixtisasartırma və yenidən hazırlanma institutlarının tədris-təlim proqramlarına antinarkomaniya mövzusunun daxil edilməsi, tələbələr üçün ictimai mühazirə və seminarların keçirilməsi | Təhsil Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.4.18.** | Təhsil müəssisələrində psixo-pedaqoji fəaliyyətin təkmilləşdirilməsi, məktəb psixoloqları üçün narkomanlıq probleminə dair təlim və treninqlərin keçirilməsi | Təhsil Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, digər aidiyyəti dövlət orqanları (qurumları) | mütəmadi |
| **4.4.19.** | Narkotiklərdən zərərçəkmiş uşaqların fərdi reabilitasiyasının və cəmiyyətə reinteqrasiyasının həyata keçirilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar | 2019–2024 |
| **4.4.20.** | Narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri, bu sahədə həyata keçirilən tədbirlər, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılmasının təmin edilməsi | Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | mütəmadi |
| **4.4.21.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında qanunvericiliyin müddəalarının və tələblərinin əhaliyə izah edilməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Televiziya və Radio Şurası, Mətbuat Şurası | mütəmadi |
| **4.4.22.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində rüblük hesabatların hazırlanması, statistik və analitik məlumatların internet saytında yerləşdirilməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | hər rüb |
| **4.4.23.** | Narkotik vasitələrin, psixotrop maddələrin qəbulu və bununla bağlı problemlər haqqında vətəndaşlar arasında ictimai maarifləndirmə məqsədilə təbliğat işinin təşkili | Gənclər və İdman Nazirliyi, Milli Televiziya və Radio Şurası, Mətbuat Şurası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Milli Elmlər Akademiyası, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, digər aidiyyəti dövlət orqanları (qurumları) | mütəmadi |
| **4.4.24.** | Narkomanlıqla mübarizə sahəsində maarifləndirmə tədbirlərinin aparılması məqsədilə təlimçilərin hazırlanması və bu istiqamətdə mexanizmin təkmilləşdirilməsi, habelə mövcud beynəlxalq təcrübənin tətbiqi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2019–2021 |
| **4.4.25.** | Şagird və tələbələrin antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı intellektual müsabiqələrin təşkili | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, digər aidiyyəti dövlət orqanları (qurumları) | mütəmadi |
| **4.4.26.** | Narkotik və psixotrop maddələr haqqında məlumatlılığın artırılması məqsədilə ümumi təhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, sinif rəhbərləri, uşaq birliyi rəhbərləri, məktəb psixoloqları, valideyn komitəsi sədrləri, məktəb-valideyn icmasının üzvləri, müəllim və şagirdləri üçün seminar-məşğələlərin, profilaktik tədbirlərin həyata keçirilməsi | Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | mütəmadi |
| **4.4.27.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınması istiqamətində maarifləndirici materialların hazırlanmasının və yayılmasının təşkili | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.4.28.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə mövzusunda televiziya və radio proqramlarında xüsusi verilişlərin təşkil edilməsi | Milli Televiziya və Radio Şurası, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | mütəmadi |
| **4.4.29.** | Müasir təbliğat və maarifləndirmə metodlarından istifadə etməklə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı təbliğat aparılması | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.4.30.** | Sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı teatr tamaşası, bədii, sənədli və animasiya filmlərinin hazırlanması | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Milli Televiziya və Radio Şurası, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2019–2024 |
| **4.4.31.** | Narkomanlıq və onun fəsadları barədə kütləvi informasiya vasitələrində daha dolğun məlumatların, müəllif yazılarının hazırlanması məqsədilə narkomanlığın spesifik cəhətləri ilə bağlı jurnalistlər üçün təlim kurslarının təşkili, həmçinin bu kursları aparan təlimçi kadrların hazırlanması | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Milli Televiziya və Radio Şurası, Mətbuat Şurası | 2019–2024 |
| **4.4.32.** | Tanınmış ictimai və din xadimlərinin, incəsənət və idman ustalarının iştirakı ilə mövzuya həsr olunmuş təbliğat xarakterli kütləvi tədbirlərin təşkil edilməsi | Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | mütəmadi |
| **4.4.33.** | Azərbaycan Respublikasının Silahlı Qüvvələrində həqiqi hərbi xidmət keçənlər, o cümlədən digər qulluqçular arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat işinin gücləndirilməsi | Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | mütəmadi |
| **4.4.34.** | Şəhər və rayonlarda asudə vaxtın səmərəli təşkili məqsədilə yeniyetmə və gənclərə xidmət göstərən dövlət müəssisələrinin fəaliyyətinin inkişaf etdirilməsi, bu sahədə çalışan mütəxəssis və əməkdaşların biliklərinin, bacarıqlarının və peşəkarlıq səviyyəsinin artırılması | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.4.35.** | Müasir informasiya texnologiyalarının imkanları nəzərə alınmaqla, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işinin daha da genişləndirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti, Bakı Nəqliyyat Agentliyi, Dövlət Reklam Agentliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | mütəmadi |
| **4.4.36.** | Cəmiyyətdə xüsusi nüfuzu ilə seçilən ictimaiyyət nümayəndələrinin iştirakı ilə narkomaniyadan əziyyət çəkən şəxslərin sağlam sosial həyata inteqrasiya olunması ilə bağlı onlara inam və etimad motivlərini nəzərdə tutan müxtəlif məzmunlu sosial layihələrin həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2019–2024 |
| **4.4.37.** | Təbliğat və maarifləndirmə işlərinin gücləndirilməsi məqsədilə müxtəlif maarifləndirici materialların hazırlanması, internet resurslarında yerləşdirilməsi və onlardan istifadənin təşviqi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| **4.4.38.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində sosial çarxların hazırlanması və kütləvi informasiya vasitələrində geniş işıqlandırılması | Milli Televiziya və Radio Şurası, Mətbuat Şurası, Gənclər və İdman Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu | mütəmadi |

**Qeyd.** Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, bu Dövlət Proqramının 4.1.2-ci, 4.1.12-ci, 4.1.13-cü, 4.1.14-cü, 4.2.1–4.2.6-cı, 4.3.5-ci, 4.4.2-ci, 4.4.13-cü və 4.4.21-ci yarımbəndlərində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsində iştirak etsinlər.